# İnsan hüquqları haqqında Avropa Konvensiyası

Canlı sənəd

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

# İnsan hüquqları haqqında Avropa Konvensiyası

Canlı sənəd

İngilis dilində nəşr:
**The European Convention on Human Rights - A living instrument**

Bu sənəd Məhkəmənin İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən hazırlanmışdır. O, İnsan hüquqları haqqında Avropa Konvensiyasında yer alan hüquqları sadələşdirilmiş formada təqdim etmək üçün hazırlanmışdır və sırf maarifləndirici məqsədlər üçün nəzərdə tutulur. Hüquqi qüvvəyə malik mötəbər sənədlər Konvensiyanın ingilis və fransız dillərindəki rəsmi versiyalarıdır.

Bütün hüquqlar qorunur. İctimaiyyətlə əlaqələr şöbəsindən (AİHM-in Katibliyi) yazılı razılıq almadan bu nəşrin heç bir hissəsi tərcümə oluna, elektron (CD-ROM, internet və s.) və ya mexaniki forma daxil olmaqla hər hansı formada və ya hər hansı vasitələrlə təkrar nəşr edilə və ya ötürülə, o cümlədən kserosurəti çıxarıla, audioyazıya alına, hər hansı informasiya saxlama və ya əldə etmə sistemində yerləşdirilə bilməz.

© Fotolar Avropa Şurası tərəfindən təqdim edilmişdir.

© İllüstrasiya Shutтerstock portalından əldə edilmişdir.

© Qrafik dizayn AİHM-in İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən hazırlanmışdır.

© Səhifələrin formatlanması AİHM-in İctimaiyyətlə əlaqələr şöbəsi tərəfindən həyata keçirilmişdir.

© Avropa İnsan Hüquqları Məhkəməsi, sentyabr 2020-ci il

# Mündəricat

**İnsan hüquqları haqqında Avropa Konvensiyası** 5

**Avropa İnsan Hüquqları Məhkəməsi** 5

**Presedent hüququ** 6

**Konvensiyanın təsiri** 6

**Konvensiya – müasir sənəd** 7

**Konvensiya sistemində islahatlar** 8

**Əlavə 1. Konvensiyanın qısa xülasəsi** 10

**Əlavə 2. İnsan hüquqları və əsas azadlıqlar haqqında Avropa Konvensiyasını imzalamış dövlətlər** 15

**Əlavə 3. Əsas tarixlər** 16

**Əlavə 4. Konvensiyanın Protokolları** 18

**Əlavə 5. İnsan hüquqları haqqında Konvensiyanı imzalamış və ratifikasiya etmiş ölkələrin cədvəli (005 nömrəli müqavilə)** 22

Avropa Konvensiyasının mühümlüyünün əsasını onun qoruduğu hüquq və azadlıqların dairəsi və həmçinin Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən yaradılmış sistem təşkil edir, sonuncunun vəzifəsi dövlətlərin öz öhdəliklərini yerinə yetirməsinə nəzarət etməkdir; bu sistem çərçivəsində fərdlər hüquq və azadlıqları pozulduğu təqdirdə dövlətə qarşı iş qaldıra bilərlər.



## İnsan hüquqları haqqında Avropa Konvensiyası

4 noyabr 1950-ci ildə imzalanmış İnsan hüquqları haqqında Avropa Konvensiyası İnsan hüquqları haqqında Ümumi Bəyannamədə əks olunmuş hüquqları təsbit edən və onlara məcburi hüquqi qüvvə verən ilk sənəddir. O, yaşamaq hüququ və ya işgəncəyə məruz qalmamaq hüququ kimi elə mütləq hüquqları müəyyənləşdirir ki, dövlətlər onları poza bilməzlər, o həm də azadlıq və toxunulmazlıq hüququ və şəxsi və ailə həyatına hörmət hüququ kimi müəyyən hüquq və azadlıqları qoruyur ki, onlar demokratik cəmiyyətdə zəruri olan hallarda yalnız qanunla məhdudlaşdırıla bilər.

Əlavə protokolların qəbul edilməsi ilə ilkin mətnə bir sıra hüquqlar əlavə edilmişdir ki, onlar konkret olaraq ölüm cəzasının ləğvi, mülkiyyətin müdafiəsi, azad seçki hüququ və ya hərəkət azadlığı ilə əlaqədardır.



## Avropa İnsan Hüquqları Məhkəməsi

Avropa Şurasının məhkəmə orqanı olan Avropa İnsan Hüquqları Məhkəməsi fərdlərin şikayət ərizələrinə, eyni zamanda bir dövlətin Konvensiya iştirakçısı olan digər dövlətə qarşı verdiyi dövlətlərarası şikayət ərizələrinə baxır. Hazırda 47 ölkə təkcə öz vətəndaşlarının deyil, həm də yurisdiksiyası daxilində olan qeyri-avropalıların əsas hüquq və azadlıqlarını təmin etməyi öhdəsinə götürmüşdür.

## Presedent hüququ

Məhkəmənin presedent hüququ zəngindir və bir çox müxtəlif mövzulara aiddir. Çox zaman Məhkəmə tərəfindən müəyyən edilən Konvensiya pozuntusu ədalətli məhkəmə araşdırması hüququna aid olur ki, bunun da səbəbi məhkəmə prosesinin ədalətli olmaması və ya həddindən artıq uzun sürməsidir. Həmçinin çox vaxt azadlıq və toxunulmazlıq hüququnun və mülkiyyətin müdafiəsi hüququnun pozulması ilə bağlı qərarlar da çıxarılır.

Məhkəmə abort, intihara yardım, bədəndə axtarış, ev köləliyi, homoseksuallar tərəfindən övladlığa götürmə, məktəblərdə dini rəmzlərin taxılması (geyilməsi), jurnalist mənbələrinin qorunması və ya DNT məlumatlarının saxlanılması kimi bir çox sosial məsələlər üzrə qərarlar qəbul etmişdir.

## Konvensiyanın təsiri

Məhkəmənin işinin əhəmiyyətli təsirinin səbəbi onun qərarlarının məcburi hüquqi qüvvəyə malik olmasındadır. Pozuntu törətdiyi müəyyən edilmiş dövlətdən tələb olunur ki, ərizəçinin məruz qaldığı ziyanın əvəzini ödəsin və pozuntunun nəticələrini mümkün olan dərəcədə aradan qaldırsın. Dövlət həm də analoji pozuntunun bir daha baş verməyəcəyini, başqa sözlə, hər hansı digər şəxsin aşkar edilmiş bu kimi pozuntunun qurbanı olmayacağını təmin etməlidir. Təcrübədə bu, çox zaman qanunvericilikdə dəyişikliklər edilməsinə səbəb olur.




Qanunvericilik və ya praktikanı Konvensiyaya uyğunlaşdırmaq üçün dəyişiklik etməklə dövlətlər insan hüquqlarının müdafiəsi sahəsində gələcək inkişafdan hər kəsin faydalanmasına şərait yaratmış olurlar. Beləliklə, tək məhkəmə qərarı dövlətin bütün əhalisinə təsir göstərə bilər. Qərarların icrasına nəzarət Avropa Şurasının icra orqanı olan Nazirlər Komitəsinə həvalə olunmuşdur.

Məhkəmənin qərarlarından irəli gələn dəyişikliklərin nümunələri :

- **Kipr** yetkinlik yaşına çatmış şəxslər arasında qarşılıqlı razılığa əsaslanan homoseksual münasibətləri cinayət əməli kimi müəyyən edən müddəanı ləğv etmişdir,
- Həmkarlar ittifaqına üzv olma **Danimarkada** daha məcburi öhdəlik deyil,
- **Fransa** qanuni nikahdan doğulmuş uşaqlarla nikahdan kənar doğulmuş uşaqların vərəsəlik məsələlərində hüquqlarının bərabərliyini qəbul etmişdir,
- **Birləşmiş Krallıq** dövlət məktəblərində cismani cəzanı qadağan etmişdir,
- **İsveçrə** telefon danışıqlarının dinlənilməsini tənzimləyən qanun qəbul etmişdir,
- və bir çox dövlətlər məhkəmə icraatının həddən artıq uzanmasından insanların şikayət etməsinə imkan yaradan hüquqi müdafiə vasitələri tətbiq etmişlər.

## Konvensiya – müasir sənəd

Konvensiyaya güc qatan və onu olduqca müasir sənəd edən onun Məhkəmə tərəfindən necə şərh edilməsidir, yəni dinamik şəkildə, müasir günün şərtlərinin işığında şərh olunmasıdır. Özünün presedent hüququ vasitəsilə Məhkəmə Konvensiyada göstərilən hüquqların əhatə dairəsini elə genişləndirmişdir ki, bu gün Konvensiyanın müddəaları ilk dəfə onun qəbul edildiyi dövrdə öncədən görülməsi və təsəvvür edilməsi əsla mümkün olmayan situasiyalara, o cümlədən yeni texnologiyalar, bioetika və ya ətraf mühit ilə əlaqədar məsələlərə tətbiq edilir. Konvensiya həm də terrorizm və ya miqrasiya kimi ictimai və ya həssas xarakterli məsələlərə tətbiq edilir.

## Konvensiya sistemində islahatlar

1959-cu ildə yarandığı vaxtdan bəri Məhkəmə 910.000-ə yaxın şikayət ərizəsinə baxılmasını yekunlaşdırmış, həmin şikayətlər üzrə qərar və ya qərardad qəbul etmiş, yaxud onları baxılmalı işlərin siyahısından çıxarmışdır.

İşlərin həcminin artması ilə qarşılaşan Avropa Şurasının üzv dövlətləri ilkin olaraq yaradılmış nəzarət mexanizminin təkmilləşdirilməsi və gücləndirilməsi üçün Konvensiyaya dair müxtəlif Protokollar qəbul etmişlər. Müvafiq olaraq, ən sadə işlərin həlli üçün məhkəmə yeni qaydada formalaşdırılır.

Buna paralel olaraq, Məhkəmə öz iş metodlarının səmərəliliyini artırmaq və resurslarını optimallaşdırmaq məqsədilə öz işində islahatlar aparmışdır. Məsələn, oxşar məsələlər (onlar həm də sistem problemləri adlandırılır) üzrə kütləvi şəkildə daxil olan və daxili qanunvericiliyin Konvensiyaya uyğun olmamasından irəli gələn şikayət ərizələrini həll etmək üçün o, pilot qərar proseduru yaratmışdır.

O həmçinin şikayətlərin prioritetliyini müəyyənləşdirmə siyasətini qəbul etmişdir, belə ki, bu zaman şikayət ərizələrinə baxılma ardıcıllığını müəyyənləşdirmək üçün şikayətdə qaldırılan məsələlərin mühümlüyü və təxirəsalınmazlığı nəzərə alınır.

Konvensiya onu imzalamış dövlətlərin İkinci dünya müharibəsinin vəhşiliklərini tarixə qovuşdurmaq qətiyyəti nəticəsində yaranmışdır. 1949-cu ildə on dövlət Avropa ərazisində insan hüquqlarına, demokratiyaya və qanunun aliliyinə hörmət edilməsini təmin etmək üçün Avropa Şurasını yaratmışdır. Növbəti ildə on iki dövlət Konvensiyanı qəbul etmiş və beləliklə, üzv dövlətlərin öhdəliklərini yerinə yetirmələrini təmin etmək vəzifəsi daşıyan Məhkəmə yaradılmışdır – bu, onların əleyhinə qərarlar qəbul etmək və qanunvericiliklərində dəyişiklik etmək öhdəliyi qoymaq səlahiyyətinə malik beynəlxalq məhkəmədir.

Bu gün Konvensiya həmişəkindən daha artıq dərəcədə Avropa Şurasının təməl daşıdır və bu təşkilata üzv olmaq istəyən hər hansı dövlət onu imzalamalı və ratifikasiya etməlidir. Məhkəmənin presedent hüququna Avropa qitəsindəki dövlətlərin milli məhkəmələri tərəfindən riayət edilir; hətta Avropanın sərhədləri xaricində də bir çox məhkəmələr ona istinad edirlər.



# Əlavə 1. Konvensiyanın qısa xülasəsi

**Maddə 1**

## İnsan hüquqlarına hörmət etmək öhdəliyi

*Dövlətlər ərazilərində və ya nəzarət etdikləri ərazidə olan hər kəs üçün Konvensiyada müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər.*

**Maddə 2**

## Yaşamaq hüququ

*Hər kəsin yaşamaq hüququ qanunla qorunur.*

**Maddə 3**

## İşgəncənin qadağan olunması

*Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara məruz qalmamalıdır.*

**Maddə 4**

## Köləliyin və məcburi əməyin qadağan olunması

*Heç kəslə kölə kimi davranılmamalı və ya heç kəs məcburi əməyə cəlb olunmamalıdır.*

**Maddə 5**

## Azadlıq və toxunulmazlıq hüququ

*Hər kəsin azadlıq hüququ var. Tutulmuş hər kəs tutulandan sonra tez bir zamanda bunun səbəbi barədə məlumatlandırılmaq hüququna malikdir. O, dərhal hakimin yanına gətirilməli, ağlabatan müddətdə məhkəmə qarşısına çıxarılmalı və ya məhkəməsi keçirilənə qədər azad edilməlidir.*

**Maddə 6**

## Ədalətli məhkəmə araşdırması hüququ

*Hər kəs müstəqil və qərəzsiz məhkəmə vasitəsilə ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.*

*Cinayət törətməkdə ittiham olunan hər kəs təqsiri sübut edilənə qədər təqsirsiz hesab edilir. O, əleyhinə irəli sürülən ittihamlar barəsində dərhal məlumatlandırılmalı və müdafiəsizini hazırlamaq imkanına malik olmalıdır. O, vəkilin haqqını ödəmək imkanına malik deyilsə, xidməti dövlət tərəfindən ödənilən vəkillə təmsil olunmaq hüququna malikdir.*

**Maddə 7**

## Qanunda nəzərdə tutulmamış cəzanın yolverilməzliyi

*Heç kəs törədildiyi zaman cinayət sayılmayan əməldə təqsirli hesab edilə bilməz.*

**Maddə 8**

## Şəxsi və ailə həyatına hörmət hüququ

*Hər kəs şəxsi və ailə həyatının, mənzilinin və yazışma sirrinin toxunulmazlığına hörmət edilməsi hüququna malikdir.*

**Maddə 9**

## Fikir, vicdan və din azadlığı

*Hər kəsin fikir, vicdan və din azadlığı hüququ var. O öz dininə açıq və ya şəxsi qaydada etiqad edə və dinini dəyişə bilər.*

**Maddə 10**

## Fikri ifadə etmək azadlığı

*Hər kəs ifadə azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyinə malik olmaq azadlığı və məlumat və ideyaları bölüşmək və əldə etmək azadlığı daxildir.*

## Maddə 11

### Yığıncaqlar və birləşmək azadlığı

*Hər kəsin dinc toplantılarda iştirak etmək və birliklərə qoşulmaq hüququ var. Həmkarlar ittifaqı yaratmaq və həmkarlar ittifaqına daxil olmaq hüququ da buraya daxildir.*

## Maddə 12

### Nikah hüququ

*Hər kəsin nikaha daxil olmaq və ailə qurmaq hüququ var.*

## Maddə 13

### Səmərəli hüquqi müdafiə vasitələri hüququ

*Hər kəs hüquqları pozulduğu təqdirdə məhkəməyə şikayət etmək hüququna malikdir.*

## Maddə 14

### Ayrı-seçkiliyin qadağan olunması

*Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlar cins, dərinin rəngi, din, siyasi baxışlar və ya sosial mənşə kimi amillərdən asılı olmayaraq bütün şəxslərə şamil olunur.*

## Maddə 34

### Fərdi şikayətlər

*AİHM-ə müraciət etmək hüququ mütləq hüquqdur. Dövlətlər heç bir halda bu hüquqa müdaxilə edə bilməzlər.*



## Maddə 1, Protokol № 1

### Mülkiyyətin müdafiəsi

*Hər kəsin mülkiyyətə malik olmaq və mülkiyyətindən istifadə etmək hüququ var.*

## Maddə 2, Protokol № 1

### Təhsil hüququ

*Hər kəsin təhsil almaq və təhsil vermək hüququ var.*

## Maddə 3, Protokol № 1

### Azad seçki hüququ

*Hər kəs qanunverici orqana (yəni milli parlamentə) və Avropa Parlamentinə seçkilərdə gizli səsvermə yolu ilə iştirak etmək hüququna malikdir.*

## Maddə 2, Protokol № 4

### Hərəkət azadlığı

*Qanuni əsasda ölkədə olan bütün şəxslər ölkə ərazisində sərbəst hərəkət edə və yaşamaq istədikləri yeri seçə bilərlər.*

## Maddə 1, Protokol № 6

### Ölüm cəzasının ləğvi

*Heç kəs dövlət tərəfindən ölüm cəzasına məhkum olunmamalı və edam edilməməlidir.*

## Maddə 2, Protokol № 7

### Cinayət işlərində şikayət vermə hüququ

*Cinayət əməlinə görə məhkum edilmiş hər kəs yuxarı instansiya məhkəməsinə şikayət etmək hüququna malikdir.*

## Maddə 3, Protokol № 7

### Məhkəmə səhvinə görə kompensasiya

*Məhkəmənin səhvən məhkum etdiyi bütün şəxslər kompensasiya hüququna malikdirlər.*

## Maddə 4, Protokol № 7

### İki dəfə mühakimə edilməmək və ya cəzalandırılmamaq hüququ

*Heç kəs eyni cinayət əməlinə görə iki dəfə məsuliyyətə cəlb oluna bilməz, yeni faktların sübuta yetirildiyi hallar istisna təşkil edir.*

## Maddə 5, Protokol № 7

### Ər və arvadın hüquq bərabərliyi

*Nikahda olan ər və arvad həm bir-birinə, həm də övladlarına münasibətdə eyni hüquqlara və vəzifələrə malikdir.*

## Maddə 1, Protokol № 12

### Ayrı-seçkiliyə ümumi qadağa

*Hər kəs cins, dərinin rəngi, siyasi və ya dini əqidə və ya sosial mənşə kimi səbəblərdən ayrı-seçkiliyə məruz qalmadan hüquqlarından istifadə etmək imkanına malik olmalıdır.*

## Maddə 1, Protokol № 13

### Ölüm cəzasının ləğvi

*Ölüm cəzası hətta müharibə dövründə də qadağan olunur.*



# Əlavə 2. İnsan hüquqları və əsas azadlıqlar haqqında Avropa Konvensiyasını imzalamış dövlətlər

Bu Konvensiya daha çox "İnsan hüquqları haqqında Avropa Konvensiyası" adı ilə tanınır (Roma, 4 noyabr 1950-ci il)



- Belçika Krallığının Hökuməti adından: **Paul VAN ZEELAND**
- Danimarka Krallığının Hökuməti adından: **Otto Carl MOHR**
- Fransa Respublikasının Hökuməti adından: **Robert SCHUMAN**
- Almaniya Federativ Respublikasının Hökuməti adından: **Walter HALLSTEIN**
- İslandiya Respublikasının Hökuməti adından: **Petur BENEDIKTSSON**
- İrlandiya Respublikasının Hökuməti adından: **Seán MAC BRIDE**
- İtaliya Respublikasının Hökuməti adından: **Carlo SFORZA**
- Böyük Lüksemburq Hersoqluğunun Hökuməti adından: **Joseph BECH**
- Niderland Krallığının Hökuməti adından: **Dirk STIKKER**
- Norveç Krallığının Hökuməti adından: **Halvard Manthey LANGE**
- Saar Hökuməti adından: **Edgar HECTOR**
- Türkiyə Respublikasının Hökuməti adından: **Mehmet Fuat KÖPRÜLÜ**
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Hökuməti adından: **Ernest DAVIES**

# Əlavə 3. Əsas tarixlər

**5 may 1949-cu il**

*Avropa Şurasının yaradılması barədə London Müqaviləsinin imzalanması.*

**4 noyabr 1950-ci il**

*Romada İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (İnsan hüquqları haqqında Avropa Konvensiyası adı ilə tanınır) imzalanması.*

**3 sentyabr 1953-cü il**

*İnsan hüquqları haqqında Avropa Konvensiyasının qüvvəyə minməsi.*

**21 yanvar 1959-cu il**

*Avropa Şurasının Məşvərət Assambleyası tərəfindən Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərinin ilk dəfə seçilməsi.*



**14 noyabr 1960-cı il**

*Məhkəmənin ilk qərarını çıxarması: Louless İrlandiyaya qarşı.*

**14 noyabr 1998-ci il**

*İnsan hüquqları haqqında Avropa Konvensiyasının 11 saylı Protokolu əsasında yeni Məhkəmənin yaradılması. Əvvəlki nəzarət sistemi daimi əsasda fəaliyyət göstərən bu vahid Məhkəmə ilə əvəz edilmişdir.*

**1 iyun 2010-cu il**

*İşlərin həllini sürətləndirmək üçün məhkəmənin yeni qaydada formalaşdırılması. İndi hakimlər uzadılmayan doqquz illik müddət ərzində vəzifədə qalıb işləyə bilərlər.*

# Əlavə 4. Konvensiyanın Protokolları

## Əlavə Protokol

- **Qüvvəyə minmə tarixi: 18 may 1954-cü il**

*1 saylı Protokol adı ilə tanınır: yeni hüquqları, konkret olaraq öz mülkiyyətindən maneəsiz istifadə hüququnu, təhsil hüququnu və gizli səsvermə yolu ilə azad seçki hüququnu nəzərdə tutur.*

## 2 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 21 sentyabr 1970-ci il**

*Məhkəməyə Nazirlər Komitəsinin sorğusu üzrə məsləhət rəyləri vermək səlahiyyəti verir.*

## 3 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 21 sentyabr 1970-ci il**

*Konvensiyanın keçmiş 29, 30 və 34-cü maddələrində dəyişiklik etmişdir.*

## 4 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 2 may 1968-ci il**

*Konkret olaraq, müqavilə öhdəliklərinin yerinə yetirilməməsinə görə azadlıqdan məhrum edilmənin qadağan edilməsini, hərəkət azadlığını və öz yaşayış yerini sərbəst seçmək azadlığını, vətəndaşların ölkədən məcburi çıxarılmasının və əcnəbilərin kollektiv surətdə çıxarılmasının qadağan edilməsini nəzərdə tutur.*



## 5 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 20 dekabr 1971-ci il**

*Konvensiyanın 22 və 40-cı maddələrində dəyişiklik etmişdir.*

## 6 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 1 mart 1985-ci il**

*Ölüm cəzasının ləğv edilməsi barəsindədir.*

## 7 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 1 noyabr 1988-ci il**

*Konkret olaraq, cinayət işlərində şikayət vermək hüququnu, səhvən məhkum edilməyə görə kompensasiya hüququnu, eyni əmələ görə iki dəfə məsuliyyətə cəlb edilməmək və ya cəzalandırılmamaq hüququnu və ərlə arvadın hüquq bərabərliyini nəzərdə tutur.*

## 8 saylı Protokol

- **Qüvvəyə minmə tarixi: 1 yanvar 1990-cı il**

*Avropa İnsan Hüquqları Komissiyasının fəaliyyətində dəyişiklik edir.*

### 9 saylı Protokol

**Qüvvəyə minmə tarixi: 1 oktyabr 1994-cü il**

*Ərizəçilərə müəyyən hallarda Məhkəmədən işlərinin araşdırılmasını xahiş etmək hüququ verir.*

### 10 saylı Protokol

**İmzalanma tarixi: 25 mart 1992-ci il**

*Keçmiş Konvensiya sistemi çərçivəsində Konvensiyaya nəzarət prosedurunu təkmilləşdirmişdir (11 saylı Protokolun qüvvəyə minməsi ilə bu sənəd mənasını itirmişdir).*

### 11 saylı Protokol

**Qüvvəyə minmə tarixi: 1 noyabr 1998-ci il**

*"Yeni Məhkəmə" yaratmışdır.*

### 12 saylı Protokol

**Qüvvəyə minmə tarixi: 1 aprel 2005-ci il**

*Ayrı-seçkiliyə ümumi qadağa tətbiq etmişdir.*



### 13 saylı Protokol

**Qüvvəyə minmə tarixi: 1 iyul 2003-cü il**

*Bütün hallarda ölüm cəzasının ləğv edilməsi barəsindədir.*

### 14 saylı Protokol

**Qüvvəyə minmə tarixi: 1 iyun 2010-cu il**

*Konkret olaraq, ən sadə işlərin həlli üçün məhkəmənin yeni qaydada formalaşdırılmasını və ərizələrin yeni qəbuledilənlik meyarlarını nəzərdə tutur. Bu Protokol həmçinin hakimlərin vəzifədə qalma müddətini altı ildən doqquz ilədək uzatmışdır və bu müddət uzadıla bilməz.*

### 15 saylı Protokol

**İmzalanma tarixi: 24 iyun 2013-cü il – hələ qüvvəyə minməyib**

*Subsidiarlıq prinsipini və qiymətləndirmə sərbəstliyinin hüdudları doktrinasını müəyyən edir. Məhkəməyə müraciət üçün müddəti altı aydan dörd ayadək azaldır.*

### 16 saylı Protokol

**Qüvvəyə minmə tarixi: 1 avqust 2018-ci il**

*İştirakçı dövlətlərin ən yüksək instansiya məhkəməsinin məsləhət rəyi üçün Məhkəməyə sorğu verməsinə imkan yaradır.*

# Əlavə 5. İnsan hüquqları haqqında Konvensiyanı imzalamış və ratifikasiya etmiş ölkələrin cədvəli (005 nömrəli müqavilə)

| | İmzalama | Ratifikasiya | Qüvvəyə minmə |
|---|---|---|---|
| Albaniya | 13/07/1995 | 02/10/1996 | 02/10/1996 |
| Andorra | 10/11/1994 | 22/01/1996 | 22/01/1996 |
| Ermənistan | 25/01/2001 | 26/04/2002 | 26/04/2002 |
| Avstriya | 13/12/1957 | 03/09/1958 | 03/09/1958 |
| Azərbaycan | 25/01/2001 | 15/04/2002 | 15/04/2002 |
| Belçika | 04/11/1950 | 14/06/1955 | 14/06/1955 |
| Bosniya və Herseqovina | 24/04/2002 | 12/07/2002 | 12/07/2002 |
| Bolqarıstan | 07/05/1992 | 07/09/1992 | 07/09/1992 |
| Xorvatiya | 06/11/1996 | 05/11/1997 | 05/11/1997 |
| Kipr | 16/12/1961 | 06/10/1962 | 06/10/1962 |
| Çex Respublikası | 21/02/1991 | 18/03/1992 | 01/01/1993 |
| Danimarka | 04/11/1950 | 13/04/1953 | 03/09/1953 |
| Estoniya | 14/05/1993 | 16/04/1996 | 16/04/1996 |
| Finlandiya | 05/05/1989 | 10/05/1990 | 10/05/1990 |
| Fransa | 04/11/1950 | 03/05/1974 | 03/05/1974 |
| Gürcüstan | 27/04/1999 | 20/05/1999 | 20/05/1999 |
| Almaniya | 04/11/1950 | 05/12/1952 | 03/09/1953 |
| Yunanıstan | 28/11/1950 | 28/11/1974 | 28/11/1974 |
| Macarıstan | 06/11/1990 | 05/11/1992 | 05/11/1992 |
| İslandiya | 04/11/1950 | 29/06/1953 | 03/09/1953 |
| İrlandiya | 04/11/1950 | 25/02/1953 | 03/09/1953 |
| İtaliya | 04/11/1950 | 26/10/1955 | 26/10/1955 |
| Latviya | 10/02/1995 | 27/06/1997 | 27/06/1997 |
| Lixtenşteyn | 23/11/1978 | 08/09/1982 | 08/09/1982 |
| Litva | 14/05/1993 | 20/06/1995 | 20/06/1995 |



| | İmzalama | Ratifikasiya | Qüvvəyə minmə |
|---|---|---|---|
| Lüksemburq | 04/11/1950 | 03/09/1953 | 03/09/1953 |
| Malta | 12/12/1966 | 23/01/1967 | 23/01/1967 |
| Moldova Respublikası | 13/07/1995 | 12/09/1997 | 12/09/1997 |
| Monako | 05/10/2004 | 30/11/2005 | 30/11/2005 |
| Monteneqro | 03/04/2003 | 03/03/2004 | 06/06/2006 |
| Niderland | 04/11/1950 | 31/08/1954 | 31/08/1954 |
| Şimali Makedoniya | 09/11/1995 | 10/04/1997 | 10/04/1997 |
| Norveç | 04/11/1950 | 15/01/1952 | 03/09/1953 |
| Polşa | 26/11/1991 | 19/01/1993 | 19/01/1993 |
| Portuqaliya | 22/09/1976 | 09/11/1978 | 09/11/1978 |
| Rumıniya | 07/10/1993 | 20/06/1994 | 20/06/1994 |
| Rusiya Federasiyası | 28/02/1996 | 05/05/1998 | 05/05/1998 |
| San-Marino | 16/11/1988 | 22/03/1989 | 22/03/1989 |
| Serbiya | 03/04/2003 | 03/03/2004 | 03/03/2004 |
| Slovakiya Respublikası | 21/02/1991 | 18/03/1992 | 01/01/1993 |
| Sloveniya | 14/05/1993 | 28/06/1994 | 28/06/1994 |
| İspaniya | 24/11/1977 | 04/10/1979 | 04/10/1979 |
| İsveç | 28/11/1950 | 04/02/1952 | 03/09/1953 |
| İsveçrə | 21/12/1972 | 28/11/1974 | 28/11/1974 |
| Türkiyə | 04/11/1950 | 18/05/1954 | 18/05/1954 |
| Ukrayna | 09/11/1995 | 11/09/1997 | 11/09/1997 |
| Birləşmiş Krallıq | 04/11/1950 | 08/03/1951 | 03/09/1953 |

Konvensiyaya dair Protokolların imzalanma və ratifikasiya qrafiki Sənədləşmə ofisinin veb saytında mövcuddur: www.coe.int/fr/web/conventions.

# Konvensiyanın əsli (orijinalı)






AZE

www.echr.coe.int

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə edən aparıcı təşkilatıdır. Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, təşkilat 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdır. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE